# Qazaxıstan BTC marşrutu üzrə uzunmüddətli tərəfdaşlığı möhkəmləndirmək niyyətindədir

**Qazaxıstan ixrac marşrutlarının coğrafiyasını genişləndirərək ölkənin enerji təhlükəsizliyini möhkəmləndirir. Energetika Nazirliyi sistemli şəkildə yeni istiqamətləri inkişaf etdirir ki, onların da arasında "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Dəhlizi xüsusi yer tutur. Azərbaycanla əməkdaşlığın perspektivləri barədə AZƏRTAC-a müsahibəsində Qazaxıstanın energetika naziri Erlan Akkenjenov danışıb.**



*- Cənab nazir, Qazaxıstan ixracının diversifikasiya strategiyasında Bakı-Tbilisi-Ceyhan marşrutu hansı rolu oynayır? Bu istiqamət uzunmüddətli tərəfdaşlıq kimi nəzərdən keçirilir, yoxsa müvəqqəti alternativdir?*

- İxrac marşrutlarının diversifikasiyası hər bir ölkə üçün normal tapşırıqdır. 2022-ci ildən etibarən Prezident Kasım-Jomart Tokayevin tapşırıqlarına uyğun olaraq, nazirliyimiz əlavə tədarük yollarının inkişafı üzərində fəal işləyir. Əsas istiqamətlərdən biri Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərindən istifadə edilir və Xəzər üzərindən Avropa bazarlarına sabit tanker daşımalarını qaydasına salmışıq.

"KazMunayQaz" ilə SOCAR arasında strateji əməkdaşlıq Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə neft tranziti üçün dayanıqlı modelin formalaşdırılmasına yönəlib. Əsas prioritet şəffaf şərtlərin təmin edilməsi və infrastrukturun modernləşdirilməsi hesabına bu yolun qazaxıstanlı yük göndərənlər üçün cəlbediciliyinin artırılması olacaq. Tərəflər tərəfdaşlığın uzunmüddətli prinsiplərini möhkəmləndirməyi, marşruta yeni yataqları işlədən şirkətləri cəlb etməyi və sərbəst boru kəməri tutumundan maksimum səmərə ilə istifadə etməyi planlaşdırırlar. Nazirliyin başlıca məqsədi ixracın fasiləsizliyinə zəmanət vermək və tərəfdaşlar qarşısında misilsiz etibarlılığı təmin etməkdir. Qazaxıstan dünya arenasında enerji təhlükəsizliyini ardıcıl şəkildə möhkəmləndirərək enerji resurslarının məsuliyyətli təchizatçısı olub və olaraq da qalır.

*- Aktau limanının mövcud yükləmə-boşaltma və logistika infrastrukturu bəyan edilən həcm artımı üçün yetərlidirmi?*

- Bu gün Aktau limanı "Şimal-Cənub" və Orta dəhlizi birləşdirən əsas beynəlxalq qovşaqlardan birinə çevrilir. Qlobal logistikanın dəyişdiyi şəraitdə Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə reydlərin irimiqyaslı yenidənqurma işlərinə başlamışıq. Bu isə ildə bir milyonadək konteynerin emalına imkan verəcək. Biz ixracın artımını nəzərə alaraq infrastrukturu öncədən inkişaf etdirir, eyni zamanda "vahid pəncərə" və "door-to-door" fasiləsiz çatdırılma kimi rəqəmsal xidmətləri tətbiq edirik (nəqliyyat şirkətinin daşınmanın bütün mərhələlərini öz üzərinə götürdüyü kompleks logistika xidməti). Rəqabətli tariflər və "dar boğaz"ların aradan qaldırılması sayəsində Aktau regional limandan mühüm transmilli qovşağa çevrilir və Qazaxıstanın tranzit cəlbediciliyini gücləndirir.

*- Bu marşrut üzrə tədarükün resurs bazasını hansı Qazaxıstan şirkətləri və yataqları formalaşdırır?*

- Hazırda BTC marşrutu üzrə tədarükün resurs bazasını əsasən "KMQ Kaşaqan B.V." şirkəti vasitəsilə ixrac edilən Kaşaqan yatağının, həmçinin "Tenqizşevroyl"un resursları təşkil edir. Qazaxıstanın neft-qaz sənayesində ötən ilin fundamental hadisəsi Tengiz yatağında Gələcək Genişləndirmə Layihəsinin tam başa çatdırılması oldu. Üçüncü nəsil zavodun istismara verilməsi hasilatı ildə 12 milyon ton artırır və bu da milli iqtisadiyyat üçün uzunmüddətli, güclü ixrac gəliri mənbəyi yaradır.

*- Nazirliyin 2026-cı ildən sonra BTC vasitəsilə tədarükün artırılması ilə bağlı planları varmı?*

- Sözsüz ki, Bakı-Tbilisi-Ceyhan istiqaməti bizim üçün böyük maraq doğurur. Azərbaycan tərəfi ötürücülük qabiliyyətinin artırılmasına hazır olduğunu təsdiqləyir və bu, tədarükün faktiki dinamikasında da əksini tapır. Belə ki, ötən il bu marşrut üzrə 1,3 milyon ton Qazaxıstan nefti göndərilibsə, bu il bu rəqəmin 1,6 milyon ton olması planlaşdırılır. Müqavilə öhdəlikləri ilə 2,2 milyon ton həcmdə təsbit edilib. Mövcud texniki imkanlar nəzərə alınmaqla və iqtisadi məqsədəuyğunluq saxlanılmaq şərtilə perspektivdə bu istiqamət üzrə tədarükün mərhələli şəkildə ildə 7 milyon tona qədər artırılması mümkündür.

Azərbaycan. - 2026.- 7 fevral (№ 24).- S.14.